## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi




# Jurnalistlər bu savaşın ön cərgəsindədir

## İnformasiya hücumlarını qabaqlamağı, dünyanın xəbər tribunasına birinci çıxmağı bacarmalıyıq

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

Bu gün Azərbaycan şərəf tarixini yazır. Sentyabrın 27-dən torpaqlarımızın erməni işğalından azad edilməsi üçün qızğın savaş gedir. Cəmiyyətin son dərəcə həssas yanaşdığı bu sosial xidmətin sözçüsü təbii ki, cəbhədən birbaşa işləyən reportyorlarımızdır. Bildiyimiz kimi, müharibə şəraitində jurnalistlər ekstremal şəraitdə işləməli olurlar. Belə şəraitdə fəaliyyət göstərmək üçün müvafiq təcrübəsi olması vacibdir.

Çünki ötürülən informasiyalar bəzən düşmənin işinə yaraya bilər. Həmçinin, döyüşlər zamanı təhlükəsizlik qaydalarına riayət edilməli, diqqətsiz davranışları ağır nəticələrə gətirib çıxara bilər. Qeyd edək ki, bu günlərdə Azərbaycan Mətbuat Şurası AZTV-nin əməkdaşlarının Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulması ilə bağlı beynəlxalq media qurumlarına müraciət edib. Şuradan verilən məlumata görə, müraciətdə deyilir: "Ermənistan silahlı qüvvələri Tərtər rayonunda Azərbaycan jurnalistlərini atəşə tutublar. Rayonun Düyərli kəndində Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri QSC-nin (AZTV) çəkiliş qrupunun olduğu avtomobilin hucuma məruz qalması nəticəsində sürücü Namiq Qənbərov üz və qarın nahiyəsindən xəsarət alıb, maşına ciddi ziyan dəyib. AZTV-nin atəşə məruz qalmış avtomobilinin üzərində onun sözügedən telekanala məxsusluğunu təsdiqləyən fərqləndirici nişanlar yer alıb. Maşındakı jurnalistlər də üzərində "PRESS" yazılmış gödəkçələrdə olublar. Kənardan baxanda görmək mümkün idi ki, avtomobil hərbi məqsədlər üçün deyil və bu, onu deməyə tam əsas verir ki, Ermənistan silahlı qüvvələri jurnalistləri bilərəkdən atəşə tutublar. Məqsəd media təmsilçilərinin həyatlarına qəsd etməkdir. Azərbaycan Mətbuat Şurası AZTV-nin xidməti avtomobilinin atəşə tutulması faktını qətiyyətlə pisləyir və bunu Ermənistanın azad sözə qarşı məqsədli hücumu kimi qiymətləndirir. Baş vermiş hadisə onu göstərir ki, işğalçı ölkə heç bir dəyərləri gözləmir, obyektiv həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasını əngəlləmək yolu tutur. Jurnalistlərin fəaliyyətini məhdudlaşdırmağa yönəlmiş belə cinayət əməlinə dünyanın media ictimaiyyətinin obyektiv və sərt münasibət göstərməsi son dərəcə vacibdir. Mətbuat Şurası bildirir ki, Dağlıq Qarabağ münaqişəsi müstəvisində hərbi əməliyyatların intensivləşdiyi hazırkı şəraitdə Ermənistan hərbi dairələri illərdir işğal altında saxladıqları Azərbaycan torpaqlarına xaricdən media təmsilçilərini dəvət edir, heç bir təminat vermədən onların həyat və sağlamlıqları üçün böyük təhdid yaradırlar. Bu, beynəlxalq hüququn norma və prinsiplərini, suveren dövlət kimi Azərbaycanın haqlarına söykənmiş prosedur tələblərə məhəl qoymamaqdır. Bu, eyni zamanda jurnalist həyatları üzərindən söz və ifadə azadlığı ilə açıq manipulyasiyadır. Məlumat üçün bildiririk ki, xarici ölkələrdən kütləvi informasiya vasitələri nümayəndələrinin Azərbaycan ərazisində peşə fəaliyyətlərini yerinə yetirmələri onların Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində akkreditasiyası ilə tənzimlənir. İstərdik ki, dünyanın media ictimaiyyətinin nümayəndələri olaraq sizlər gündəmə gətirdiyimiz məsələlərə həssas yanaşa, Ermənistan hakimiyyətinə qarşı mövcud istiqamətdə çağırışlar edəsiniz. Təəssüflə onu da bildiririk ki, Ermənistan hakimiyyətinin tutduğu işğalçılıq mövqeyi, bu mövqenin müxtəlif mənfi təzahür formaları nəticəsində onsuz da gərgin olan münaqişə bölgəsində və ona yaxın ərazilərdə jurnalist fəaliyyətinə qarşı bilərəkdən həyata keçirilən məhdudiyyətlərin, təhdidlərin təkrarlanmayacağına, daha acınacaqlı hadisələrin yaşanmayacağına heç bir zəmanət yoxdur".

**Azərbaycanda Konflikt Jurnalistikası Məktəbinin (KJM) yaradıcısı, "Dinc dünya" Araşdırma Mərkəzinin sədri, birinci Qarabağ müharibəsi veteranı, jurnalist Əlisafa Mehdi "Şərq"ə açıqlamasında bildirib ki, belə bir vəziyyətdə informasiya mənbəyi ilə düzgün davranmaq, informasiyanı reallığa uyğun emal etmək gərəkdir.** O bildirib ki, informasiyanı elə təqdim etmək gərəkdir ki, həm dövlətin informasiya siyasətinə xələl gəlməsin, həm də cəmiyyət sənin məlumatlandırmanla təmin olunsun. Hətta düşmən də sənin informasiyanı qəbul etsin. Niyə?! Qarşı tərəf təbii ki, dezinformasiya yayır. Amma sən jurnalistikanın universal qızıl qaydalarına uyğun informasiya verməlisən ki, dünyanın bütün informasiya agentlikləri səndən informasiya alsınlar. Fikir verdinizsə, bu il iyulda Tovuzda baş verən hadisələr dövründə dünyanın informasiya agentliklərinin heç biri bizdən informasiya almadılar. Səbəb nə idi? Bizim jurnalistlər jurnalistdən daha çox vətənsevər idilər. "Bizim" deyirdilər, "qarşı tərəf" yox, "düşmən" deyirdilər. Ona görə də, dünya informasiya agentlikləri anladılar ki, burada informasiya birtərəfli verilir, hamı üçün verilmir. Bu səbəbdən bizə istinad etmədilər. Yəni bu incəlikləri öyrənmək gərəkdir ki, jurnalistlər konkret olaraq təkcə yerli auditoriyaya yox, dünya auditoriyasına da işləyə bilsinlər".

> "İndi yaradıcılıq üçün çox yaxşı şans yaranıb. Jurnalistlər birbaşa döyüş meydanında təcrübə qazanırlar və sabah da dünyanın hər yerindən informasiya alıb ötürə biləcəklər"

*Ekspert bildirib ki, konfliktli zonada fotomüxbirin, reportyorun davranışları, informasiya mənbələri ilə - döyüşçü ilə, zabitlə, hətta jurnalist terrorçular arasında nə etməlidir, düşmən içində nə etməlidir, əsir düşərsə nə etməlidir və sair bilgilərə sahib olmalıdır:* "Təbii ki, savaş gedirsə, ora TV-lərin reportyorları göndərilir. Döyüş səhnəsində işləyən o reportyorlarımız bizi qismən qane edir. Niyə? Ona görə ki, hərbi cəhətdən bilgiləri məhduddur, silahlarla bağlı çox az məlumatlıdırlar, ekstremal vəziyyətlərin xarakterinə bələd deyillər, belə halda nə etmək lazım olduğunu bilmirlər. Baş verə biləcək prosesləri analiz təcrübələri yoxdur və buna görə də yerli publikaya işləyirlər və dünya miqyasına çıxa bilmirlər. Jurnalist hadisələrin mənbəyini ciddi araşdırmağı, informasiya hücumlarını qabaqlamağı, dünyanın xəbər tribunasına birinci çıxmağı, fikirləri kəsici-deşici zərbə ilə deməyi öyrənməlidir. Dünya üzrə opponentlərini sezməli, seçməli, onlarla işləməlidir. Bu savaşda döyüşçü olası intellektual jurnalistlərimiz var. İnformasiya savaşını xalq olaraq aparmaq gərəkdir".

Bu gün Vətən müharibəsinin gedişində ən güclü informasiya savaşını Ali Baş Komandan, cənab Prezident İlham Əliyev apardığına diqqət çəkən Ə.Mehdi əlavə edib ki, ondan güclü informasiya savaşını heç kim apara bilmir: "Qarşı tərəf bu çıxışlarından sonra bir çox həmlələrini dayandırmağa məcbur oldu. Anladılar ki, Azərbaycanda etnik azlıqlar arasında təxribat aparmaq, əhalinin döyüş ruhunu azaltmaq üçün dezinformasiyalar yaymaq bəhrə vermir. Çünki Azərbaycan Respublikasının Prezidenti bu savaşda qəti mövqe tutub və informasiya savaşında da qarşı tərəfin dezinformasiya səngərini darmadağın edir, onları susdurur. Amma bu günləri jurnalistlərimiz informasiya savaşı aparan tərəfin - opponentlərin ünvanını, kimliyini heç axıracan bilmirlər. Bu gün jurnalistlər Rusiyada, Fransada, İranda və s. partnyorlarını müəyyənləşdirməliydi ki, onlardan dolayı Qarabağ mövzusunu dünyaya yaya bilsin. İnformasiya savaşı döyüşdürsə, demək, özünəxas ordu formalaşdırmaq gərəkdir. Hər kəs ekstremal vəziyyətdə işləmək temperamentində, qabiliyyətində, hazırlığında deyil. Yalnız çılğın, xaraktercə qorxmaz jurnalistlər hadisə yerindən informasiyanı alırlar. Birinci Qarabağ savaşında, habelə, İraqda, Əfqanıstanda, Qafqazda hadisələrin içinə qoşulmuş Azərbaycan jurnalistləri var ki, çox yüksək göstəricilər ortaya qoyublar və çox yaxşı da informasiya veriblər. İndi yaradıcılıq üçün çox yaxşı şans yaranıb. Jurnalistlər birbaşa döyüş meydanında təcrübə qazanırlar və sabah da dünyanın hər yerindən informasiya alıb ötürə biləcəklər".

**"Yeniçağ" Media Qrupunun rəhbəri Aqil Ələsgər "Şərq"ə açıqlamasında bildirib ki, bu gün ən güclü informasiya savaşının başında Ali Baş Komandan, cənab Prezident İlham Əliyev durur. O bildirib ki, ermənilər səngərdən qaçsalar da informasiya məsələsində onlar bizdən daha güclü silaha malikdir:** "Amma bizim həqiqət kimi bir silahımız var. Bu baxımdan onlar nə qədər bu həqiqətlərin qarşısını almağa çalışsalar da, gec-tez həqiqəti bütün dünya görəcək və onları qəbul edəcəklər. Hesab edirəm ki, sentyabrın 27-dən bu günə qədər olan informasiya savaşında da biz əlimizdəki minimum imkanlarla kifayət qədər yüksək iş ortaya qoya bilmişik. Tvitterdə xüsusilə Türkiyə seqmentinin istifadəçilərinin dəstəyi ilə bir neçə dəfə trend topik ola bilmişik. Bu isə çox ciddi nailiyyətdir. İnformasiya blokadasına rəğmən dünya mediasına Azərbaycanın öz haqq səsini çıxartması, çatdırması çox müsbət addımdır. Biz əvvəllər çox təəssüf ki, bu mərhələləri keçə bilməmişdik".

*Ekspert vurğulayıb ki, bu gün xüsusilə hərbi jurnalistika sahəsində bir sıra axsaladığımız məqamlar var:* "Yeni hərbi jurnalistlərin yetişdirilməsinə ehtiyac var. Eyni zamanda xarici dildə media qurumlarımızın sayının artırılması çox vacibdir. İctimai, siyasi və hərbi məsələlərlə bağlı təlimlərin, seminarların sayının artırılması və jurnalistlərimizin öz üzərlərində işləməsi çox vacibdir. Bu günlərdə hər kəs tvitterlərə gəlir. Amma çox təəssüf ki, bir çox istifadəçisini tvitter ya bolt olaraq görür və qəbul eləmir, yaxud da edəndən sonra bloklayır. Çünki bunlar hamısı tvitterdə istifadə etməməyimizin səbəbidir. Bizim üçün bu böyük nöqsandır ki, bu gün kritik zamanda istifadə edə bilmirik. Çox təəssüf ki, bu səbəbdən də bir sıra istifadəçilər oyundan kənar vəziyyətə düşürlər. Bu baxımdan sosial media xüsusilə bir silahdır. Sosial media silahından tvitterdən Azərbaycan mediası çox istifadə eləməlidir. Haqq səsimizi çatdırmaqda dayanmaq olmaz! Cəbhədə atəşkəs olsa da, müharibə davam edir. Eyni şəkildə bu informasiya savaşının da atəşkəsi yoxdur. Silahlar qismən sussa da, bu savaş davam edəcək. Susub-susmasından asılı olmayaraq, biz bu savaşı sonadək davam etdirməliyik. Çünki biz Qarabağı aldıqdan sonra da bizim üzərimizə informasiya savaşında çox ciddi yüklər düşəcək".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap olunub